# Xalçaçılıq
## əsl qadın sənətidir

Tünzalə Babayeva

***Özündə tarixin, əsrlərin sirrini daşıyan xalçalar həm də bu günün mətləblərini, ismarıclarını gələcəyə ötürmək missiyasını yerinə yetirir. Həyatını xalçaçılığa həsr edənlərin isə deməyə sözü, çatdırmağa çox fikirləri var.***

Gənc xalçaçı Xəyalə Əliyeva da öz duyğularını bu minvalla xalçalara köçürür:

*"Şamaxıda doğulmuşam. Gözümü açandan nənəmi xalça toxuyan görmüşəm. Şamaxıda əsasən palaz toxumaq dəb idi. Amma nənəm xovlu xalçalara meyilli idi. O, növbənöv xalçalar toxuyardı. Bunların arasında "Qollu-Çiçi", "Pirəbədil" üstünlük təşkil edirdi. Mən də uşaq vaxtımdan nənəmin ətrafında fırlanar, barmaqlarına baxar, öyrənərdim. Xalçaçılıq sənətinə bağlılığım da elə o vaxtdan başlayıb. İlk sənət sınağım "Pirəbədil" xalçası olub. Birinci dəfə sərbəst toxuduğuma görə bəzi səhvlərim də olurdu; elementlərdə yanlışlığa yol verirdim. Zaman keçdikcə püxtələşdim. Bu sənət biganəliyi sevmir. Gərək ona can yandırasan, səbrlə yanaşasan ki, o da səni öz sirlərindən agah edə. Əks halda hana səndən üz döndərər.*

*İstənilən xalçanı toxumaq mənə zövq verir. Azərbaycanın bütün bölgələrinə xas olan xalçalar gözəldir. Hər bir xalçaçının toxuduğu xalçalar əbədilik onun yaddaşına həkk olur. Sözsüz ki, bunların arasında daha yaddaqalanları da var. Məsələn, mənim toxuduğum xalçalar arasında "Şeyx-Səfi"nin yeri xüsusidir. Qədim çeşni əsasında toxuduğumuz bu sənət əsərini unutmaq mümkün deyil. Artıq 20 ildir ki, "Azər-İlmə"nin əməkdaşıyam. Burada çalışmağa başlayanda cəmi 16 yaşım vardı. Böyük təcrübə qazandım. Daha təcrübəli, peşəkar toxuculardan öyrəndiklərim mənim üçün böyük məktəb oldu".*

Söhbətimiz zamanı xalçaçı xanım və bir neçə həmkarı unikal bir xalçanın toxunuşu üzərində son tamamlama işləri aparırdılar:

*"Bu xalça qoyunun təbii rəngli yunundan hazırlanan iplərlə toxunur. Keçmişdə nənələrimizin belə xalçaların toxunmasında böyük təcrübələri olub. Altı rəngli ipdən toxunan bu xalçanın ölçüsüçox böyükdür. Onu ərsəyə gətirmək üçün Azərbaycanın bütün bölgələrindən təbii rəngli qoyun yunu toplanıb. "Azər-İlmə"nin toxucuları həmin iplərdən "Çələbi" xalçası toxuyur".*



*"Tək toxumaq asandır, yoxsa bir neçə nəfərlə?"* sualımızı gənc toxucu belə cavablandırdı: *"Evdəki hanamda tək işləyirəm. Burada isə iriölçülü xalçaları dörd-beş usta ilə birgə toxuyuruq. Hamımız eyni qaydada toxuyuruq. Vurduğumuz naxışlar bir-birindən fərqlənməməlidir. Eyni vaxtda başlayıb, eyni cərgədə xalçanı bitiririk. Bu vaxta qədər 70-ə yaxın yun və ipək xalçalar toxumuşam. İpək xalça toxumaq yuna nisbətən daha çətindir. Belə xalçaların sıxlığı çox, ipləri isə sürüşkən olur. İpək xalçaların toxunması daha çox diqqət tələb edir. İpək səliqəli işi sevir. Ümumiyyətlə, xalçaçı olmaq üçün, ilk növbədə, bu sənətə həvəslə, həssaslıqla yanaşmaq lazımdır. Səhərdən axşama qədər bir yerdə oturub xalça toxumaq asan iş deyil. Bu sənəti özüm seçmişəm. İşimdən də böyük zövq alıram. Əsl qadın sənətidir. Gələcəkdə övladlarıma da xalça toxumağı öyrədəcəyəm".*

